ŞƏFFAFLIQ AZƏRBAYCAN

*MƏTBUAT ÜÇÜN MƏLUMAT*


**Əlaqə:**
Samir Əlibəyov, İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az


**"Şəffaflıq Azərbaycan" Quba və Şəki rayonlarında seminarlar keçirib**

**21 oktyabr, 2008 –** "Transparency İnternational" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin Quba və Şəki mərkəzləri həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində sentyabr və oktyabr ayları ərzində Şəki rayonunun Çeşməli, Oryət, Fazıl, 1-ci və 2-ci Biləcik, Baqqal və Göybulaq kənd məktəblərin müəllimləri, və Böyük və Kiçik Dəhnə, Cəfərabad, Təpəcənnət və İbrahimkənd kəndlərinin əhalisi üçün təlimlər keçiriblər. Eyni zamanda təlimlər Quba rayonunun Susay kənd əhalisi, Azərpoçt Dövlət Müəssisəsinin Quba Poçt filialının işçiləri və Böyük Vətən Müharibəsi veteranlar birliyinin Qusar rayon şöbəsinin üzvləri üçün keçirilmişdir.

Maarifləndirmə xarakteri daşıyan təlim zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında, "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın" icrası üzrə tədbirlər planı, "Transparency İnternational" təşkilatı və onun yerli bölməsi sayılan "Şəffaflıq Azərbaycan" təşkilatının fəaliyyət istiqamətləri və təşkilatın həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb və şikayəti olan əhaliyə yerində pulsuz hüquqi yardım göstərilib.

Keçirilmiş təlimlərdə daha çox Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti**,** icra hakimiyyəti, polis, Azərsu, Azerenerji, məhkəmə, pasport qeydiiyatı, ünvanlı sosial yardım və hərbi komisiarlıq sahələrində müşahidə olunan korrupsiya faktları ilə bağlı şikayətlənirdilər.

*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir". Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), ATƏT-in Bakı ofisinin və Böyük Britaniya Xarici İşlər Nazirliyinin "Qlobal İmkanlar Fondu"nun maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və onun həyata keçirdiyi layihə ilə bağlı əlavə məlumat almaq üçün təşkilatın icraçı direktoru xanım Rəna Səfərəliyevadan müsahibə götürə bilərsiniz.*